Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramlarınız mübarək!

# TƏBİB

www.amu.edu.az

2026

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-22 (1826) 30 dekabr 2025-ci il



## Azərbaycan tibb elminin korifeylərindən biri

Görkəmli alim Qəhrəman Qəhrəmanovun 100 illik yubileyi qeyd olunub

səh. 2

### Rektor OSKİ imtahanını izləyib

səh. 3

### Əməkdaşımız Azərbaycan Kardiologiya Cəmiyyətinin sədri seçilib

səh. 5

### İxtisasını daha yaxşı tanıdanlar mükafatlandırılıb

səh. 4



### Tibdə süni intellekt və rəqəmsal texnologiyaların tətbiqi günün tələbidir

Azərbaycan Tibb Universiteti ilə İnformasiya Texnologiyaları İnstitutu arasında Əməkdaşlıq memorandumu imzalanıb

səh. 2

### Miqren yalnız nevroloji problem deyil

*Rektor, professor Gəray Gəraybəyli: Miqrenin milli səhiyyə prioritetləri sırasında yer alması vacibdir*

səh. 2

### "Hədəfimiz ATU-nun regional və qlobal nüfuzunu daha da yüksəltməkdir"

*Dosent Törə Sadıqova beynəlxalq təhsil və elmi mühitə daha dərin inteqrasiyanın istiqamətlərindən danışır*

səh. 5



### Stomatologiya fakültəsi Elmi Şurada hesabat verib

Rektor Gəray Gəraybəyli: Fakültəyə çoxsaylı əcnəbilərin qəbul edilməsi keyfiyyətli tədrisə olan tələbləri daha da artırır

səh. 3

# Azərbaycan tibb elminin korifeylərindən biri

## Görkəmli alim Qəhrəman Qəhrəmanovun 100 illik yubileyi qeyd olunub

Dekabrın 18-də Azərbaycan Tibb Universitetində Əməkdar elm xadimi, "Şöhrət" ordenli, tibb elmləri doktoru, professor Qəhrəman Mehdiqulu oğlu Qəhrəmanovun anadan olmasının 100 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib.
Əvvəlcə Dövlət Himnimiz səsləndirilib, Vətənimizin bütövlüyü və gələcəyi naminə canlarını qurban vermiş qəhrəman şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.
Konfransı giriş sözü ilə açan Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli bildirib ki, ölkəmizdə Ulu Öndər Heydər Əliyev tərəfindən formalaşdırılmış mühüm bir ənənə var. Bu ənənəyə əsasən, xalqımızın, elm, təhsil və səhiyyəmizin inkişafında əvəzsiz xidmətləri olan şəxsiyyətlərin xatirəsi daim ehtiramla yad edilir, yubileyləri yüksək səviyyədə keçirilir. Rektor vurğulayıb ki, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə bu ənənə Azərbaycan Tibb Universitetində də ardıcıl şəkildə qorunur və yaşadılır.
Professor G.Gəraybəyli çıxışında Qəhrəman Qəhrəmanovun həyat və fəaliyyətinə nəzər salaraq onu Azərbaycan tibb elminin korifeylərindən biri kimi səciyyələndirib. Qeyd edib ki, Azərbaycanda neyrofiziologiya və neyrokimya məktəbinin yaradıcısı olan Q.Qəhrəmanov bütün şərəfli ömrünü tibb elminin inkişafına, elmi həqiqətlərin üzə çıxarılmasına və gənc nəslin yetişdirilməsinə həsr edib: "1925-ci il dekabrın 26-da Zəngəzur mahalının Qafan rayonunun Qaradağlı kəndində dünyaya gələn Qəhrəman Qəhrəmanov saf əqidəsi, yüksək mənəvi keyfiyyətləri və zəngin intellekti ilə hər zaman örnək bir ziyalı idi. Gənclik illərində qarşısına çıxan görkəmli alimlər – Bahadur Eyvazov, Kamil Balakişiyev, Fuad Əfəndiyev, Mustafa Topçubaşov, Zülfüqar Məmmədov, Abdulla Qarayev və Əhəd Həsənov kimi şəxsiyyətlərin elmi və mənəvi təsiri onun elm yolunu düzgün müəyyənləşdirməsində mühüm rol oynayıb. Bir vaxtlar cərrah olmağı düşünən Q.Qəhrəmanov sonradan ömrünü fiziologiya elminin inkişafına həsr etməyi daha məqsədəuyğun hesab edib və bu seçim Azərbaycan tibb elmi üçün böyük qazanc olub.
1950-ci illərdən etibarən apardığı tədqiqatlar elmi ictimaiyyətdə böyük maraq doğurub. Azərbaycan Tibb İnstitutunu "qırmızı diplom"la bitirən Q.Qəhrəmanov 1958-ci ildə professor Abdulla Qarayevin rəhbərliyi altında namizədlik dissertasiyasını müdafiə edib. Onun bu işi interoreseptorlar və maddələr mübadiləsi sahəsində aparılan sonrakı tədqiqatlar üçün mühüm elmi baza yaradıb.
Uzun illər Normal fiziologiya kafedrasında çalışan alimin elmi-pedaqoji fəaliyyəti daim yüksək qiymətləndirilib. O, "Səhiyyə əlaçısı" döş nişanı, "Əməkdar elm xadimi" fəxri adı, Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanı, bir sıra orden və medallar, o cümlədən müstəqil Azərbaycanın ali təltiflərindən olan "Şöhrət" ordeni ilə təltif edilib".
Professorun çoxsaylı elmi məqalələr, monoqrafiyalar və dərsliklərin müəllifi olduğunu xatırladan rektor, xüsusilə onun 2001-ci ildə nəşr edilən "Beyinin və ürəyin sirlərinə pəncərələr" kitabının bu gün də fiziologiya sahəsində dəyərli mənbə kimi istifadə olunduğunu diqqətə çatdırıb.
Bildirib ki, Q.Qəhrəmanov yalnız alim deyil, həm də geniş dünyagörüşə malik ensiklopedik bilikli ziyalı idi: "O, mühazirələrində tibb və fiziologiyanın ən son nailiyyətlərini tarix, fəlsəfə, poeziya və ədəbiyyatla ustalıqla əlaqələndirir, Nizami, Nəsimi, Tusi, Əl-Fərabi, İbn Sina kimi dahilərin fikirlərinə müraciət edərək tələbələrinə təkcə bilik deyil, həm də həyat fəlsəfəsi aşılayırdı".
Konfransda çıxış edən Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov Qəhrəman Qəhrəmanovun böyük elmi məktəb yaratdığını vurğulayaraq qeyd edib ki, o, ömrünün sonuna qədər fiziologiya sahəsində çalışdı, fəaliyyət göstərdi, elmi tədqiqat işləri apardı, kitablar çap etdirdi: "Hesab edirəm ki, belə böyük alimlərimizin, mütəxəssislərimizin yubileylərinin keçirilməsi vacibdir. Çünki gənc nəsil elmimizin, səhiyyəmizin, təhsilimizin keçmişini yaxşı bilməlidir. Adətən belə insanlar haqqında danışanda deyirəm ki, həyatını öz xalqına, Vətəninə həsr etmiş insanların ömrü o xalqların ömrü qədərdir. Professor Qəhrəman Qəhrəmanov da məhz belə şəxsiyyətlərdəndir".
Səhiyyə nazirinin müavini Nadir Zeynalov isə Qəhrəman müəllimin tələbəsi kimi xatirələrini bölüşərək onun mürəkkəb fiziologiya elmini sadə və anlaşılan dildə izah etmək bacarığını xüsusi qeyd edib: "Qəhrəman müəllim bizə insan fiziologiyası fənni üzrə dərs deyirdi. İnsan fiziologiyası çox mürəkkəb bir elmdir. Əslində, fiziologiya insanın həyatıdır. O mürəkkəb elmi, insan fiziologiyasını Qəhrəman müəllim biz tələbələrə asan, başa düşə biləcəyimiz dildə izah edirdi və mühazirələri çox maraqlı keçirdi. O vaxt internet yox idi, Qəhrəman müəllimin mühazirələri bizə fantastik məlumatlar kimi gəlirdi. Amma mühazirələr zamanı həm də ədəbiyyatdan, Azərbaycan tarixindən danışır, şeirlərdən misralar deyir və bunu fiziologiya ilə uzlaşdırırdı. Onun əziz xatirəsinə belə bir möhtəşəm konfransın təşkil olunmasına görə universitetin rəhbərliyinə təşəkkür edirəm".
Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, ATU-nun Normal fiziologiya kafedrasının müdiri, professor Arif Məmmədov görkəmli alimin həyatı və elmi irsinə həsr olunmuş geniş məruzə ilə çıxış edib.Professorlar İbadulla Ağayev və Paşa Qəlbinur xatirə çıxışlarında Qəhrəman Qəhrəmanovun Azərbaycan tibb elminə verdiyi əvəzsiz töhfələrdən söz açıblar.
Q.Qəhrəmanovun ailə üzvləri adından çıxış edən oğlu, professor Aydın Qəhrəmanov atasının xatirəsinə göstərilən bu ehtirama görə universitetin rəhbərliyinə və bütün tədbir iştirakçılarına öz dərin minnətdarlığını bildirib.

**Arif MƏMMƏDLİ**








# Miqren yalnız nevroloji problem deyil

## Rektor, professor Gəray Gəraybəyli: Miqrenin milli səhiyyə prioritetləri sırasında yer alması vacibdir

"Azərbaycan Miqren Mütəxəssisləri" İctimai Birliyinin I illik Beynəlxalq Konfransı keçirilib.
Səhiyyə naziri Teymur Musayev çıxışı zamanı baş ağrılarının idarə olunmasının tibbin inkişaf yolunu tam əks etdirdiyini diqqətə çatdırıb: "Min illər əvvəl baş ağrısı tibbi hal deyil, mistik bir hadisə hesab edilirdisə, bu gün klinik nevroloji problem kimi deyil, əhəmiyyətli ictimai səhiyyə məsələsi kimi qiymətləndirilməlidir".
Səhiyyə Nazirliyində bir sıra qabaqcıl mütəxəssislərlə görüş keçirildiyini qeyd edən nazir bildirib: "Tam əminliklə deyə bilərik ki, artıq miqrenin respublikamızda idarə olunmasına dair yol xəritəsinin hazırlanması barədə ilkin müzakirələr aparılıb. Belə ki, ilkin mərhələdə ən mütləq amil kimi ölkəmizdə dünya praktikasına əsaslanan, ən müasir müalicə və diaqnostika metodlarını özündə əks etdirən milli protokolun qəbul edilməsi əsas götürülüb. Bundan sonra ən qabaqcıl dərman vasitələri və digər üsulların ölkəmizdə sürətli şəkildə qeydiyyatdan keçirilməsi və əhalinin bu müalicələrə əlçatanlığını təmin etmək mövzusu müzakirə olundu. Növbəti mərhələdə icbari tibbi sığortanın xidmətlər zərfinə xroniki miqrenin idarə olunmasının da daxil edilməsi məsələsi gündəmə gəlir".
Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli çıxışında bu tədbirin miqrenin yalnız klinik nevroloji problem deyil, eyni zamanda ciddi ictimai səhiyyə çağırışı kimi qəbul olunmasının bariz nümunəsi olduğunu qeyd edib: "Bu gün artıq aydındır ki, miqren və digər baş ağrıları insanların həyat keyfiyyətinə, əmək qabiliyyətinə və sosial rifahına birbaşa təsir göstərir. Xəstəliyin geniş yayılması və yaratdığı əlillik yükü onu təkcə tibbi deyil, sosial-iqtisadi problem kimi də dəyərləndirməyi zəruri edir. Bu baxımdan, cənab nazirin qeyd etdiyi kimi, miqrenin milli səhiyyə prioritetləri sırasında yer alması son dərəcə vacib və strateji addımdır.
ATU olaraq biz miqrenin erkən diaqnostikası, müasir müalicə üsullarının tətbiqi və bu sahədə elmi tədqiqatların genişləndirilməsini xüsusi diqqət mərkəzində saxlayırıq. Gələcək həkimlərin və mütəxəssislərin hazırlanmasında müasir klinik protokollara əsaslanan tədrisin təşkili, eləcə də praktik bacarıqların formalaşdırılması əsas hədəflərimizdəndir".
Tədbirin davamında İctimai Birliyin təsisçisi və İdarə Heyətinin üzvü professor Məsud Aşina, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru Nazim Pənahov, "YAŞAT" Fondunun rəhbəri Elvin Hüseynov çıxış ediblər.
"Azərbaycan Miqren Mütəxəssisləri" İctimai Birliyinin sədri, professor Sədaqət Hüseynova qadınlarda miqrenə xüsusi diqqət ayıraraq, bunun hormonal dəyişikliklərlə bağlı olduğunu, menstruasiya, hamiləlik və menopauzanın xəstəliyin gedişinə əhəmiyyətli təsir göstərdiyini vurğulayıb.

# Tibdə süni intellekt və rəqəmsal texnologiyaların tətbiqi günün tələbidir

## Azərbaycan Tibb Universiteti ilə İnformasiya Texnologiyaları İnstitutu arasında Əməkdaşlıq memorandumu imzalanıb

**Azərbaycan Tibb Universiteti ilə Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutu arasında rəqəmsal səhiyyə və rəqəmsal tibb sahələrində əməkdaşlığın inkişaf etdirilməsinə dair memorandum imzalanıb.**



Universitetimizdə keçirilən görüşdə ATU-nun rektoru, professor Gəray Gəraybəyli, AMEA-nın vitse-prezidenti, ETN İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev, eləcə də hər iki qurumu təmsil edən məsul şəxslər, alim və mütəxəssislər iştirak ediblər.
Əvvəlcə rektor, professor Gəray Gəraybəyli çıxış edərək son illər dövlət başçısı tərəfindən elm və təhsilin inteqrasiyası istiqamətində mühüm vəzifələrin müəyyənləşdirildiyini, bu sahədə kompleks tədbirlərin həyata keçirilməsinin, əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin böyük aktuallıq kəsb etiyini bildirib.
Müasir dövrdə bütün sahələrdə olduğu kimi, tibb təhsili sferasında da informasiya texnologiyalarından, süni intellektdən geniş istifadə olunduğunu söyləyən rektor, ATU-nun bu istiqamətdə qarşıya qoyulan vəzifələrin həyata keçirilməsində fəal iştirak etdiyini deyib. Professor G. Gəraybəyli İnformasiya Texnologiyaları İnstitutu ilə qurulan əməkdaşlıq əlaqələrini, həyata keçirilən birgə multidissiplinar tədqiqatları, layihələri yüksək qiymətləndirib.
Sonra akademik Rasim Əliquliyev çıxış edərək, Prezident İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası", "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nın alim və mütəxəssislərin qarşısına mühüm vəzifələr qoyduğunu vurğulayıb: "Həmin sənədlərdə süni intellektin digər sahələrlə yanaşı, səhiyyə sektoruna da ciddi dəyişikliklər gətirəcəyi nəzərə alınaraq, bu sferada elmi tədqiqatların və əməkdaşlıq əlaqələrinin gücləndirilməsi, innovasiya mühitinin dəstəklənməsi kimi məsələlərə xüsusi diqqət yetirilir".
AMEA-nın vitse-prezidenti ATU ilə 2016-ci ildə əsası qoyulan əməkdaşlıq əlaqələrinin bu gün də uğurla davam etdirildiyini, bu illər ərzində müxtəlif görüşlərin, birgə konfransların, seminarların keçirildiyini diqqətə çatdırıb. Akademik İnformasiya Texnologiyaları İnstitutunun mütəxəssislərinin ATU-nun şəbəkə infrastrukturunun yenidən qurulmasında fəal iştirak etdiklərini söyləyib. Alim cari ilin may ayında keçirilmiş "Rəqəmsal tibb 4.0: problemlər, imkanlar və perspektivlər" II respublika elmi-praktiki konfransını da xatırladıb.
AMEA-nın müxbir üzvü, ATU-nun I Cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramov çıxışında rəhbərlik etdiyi kafedra ilə İnformasiya Texnologiyaları İnstitutu arasında başa çatmış və hazırda davam edən birgə layihələr, aparılan tədqiqatlar və nəticələr haqqında danışıb. Həmçinin kafedra və İnstitutun əməkdaşları tərəfindən hazırlanan, tələbələr və rezidentlər üçün nəzərdə tutulan "Cərrahi platforma" adlı çoxdilli və çoxfunksiyalı tədris portalı haqqında məlumat verib.
Görüşdə AMEA-nın müxbir üzvü, professor Məsumə Məmmədova, ATU-nun Tibbi və bioloji fizika kafedrasının müdiri, dosent İsmayıl Qafarov, İnfromasiya Texnologiyaları İnstitutunun AzScienceNet Şəbəkə İdarəetmə Mərkəzinin rəhbəri, texnika üzrə fəlsəfə doktoru Babək Nəbiyev və institutun şöbə müdiri, texnika üzrə fəlsəfə doktoru, dosent Fərhad Yusifov da çıxış edərək əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirlərdən, qarşıda duran vəzifə və prioritetlərdən danışıblar.
Sonra Azərbaycan Tibb Universiteti ilə İnformasiya Texnologiyaları İnstitutu arasında rəqəmsal səhiyyə və rəqəmsal tibb sahələrində əməkdaşlıq haqqında memorandum imzalanıb.

# Stomatologiya fakültəsi Elmi Şurada hesabat verib

## Rektor Gəray Gəraybəyli: Fakültəyə çoxsaylı əcnəbilərin qəbul edilməsi keyfiyyətli tədrisə olan tələbləri daha da artırır

**Dekabrın 25-də Böyük Elmi Şuranın növbəti yığıncağı olub. İclası universitetin rektoru, professor Gəray Gəraybəyli açaraq öncə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi doğum günü münasibəti ilə universitet kollektivi və Böyük Elmi Şuranın adından təbrik edib, Müzəffər Ali Baş Komandana möhkəm cansağlığı və ali dövləti fəaliyyətində uğurlar arzulayıb.**

Bundan sonra gündəlikdə duran məsələləri diqqətə çatdıran rektor, "ATU-nun Stomatologiya fakültəsində tədrisin vəziyyəti və gənc mütəxəssislərin hazırlanmasının yaxşılaşdırılması işində kollektiv qarşısında duran vəzifələr" barədə hesabat məruzəsi ilə çıxış etmək üçün sözü Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyevaya verib.

Fakültənin strukturu, kafedraları, professor-müəllim heyəti, tələbə ictimai təşkilatlarının tərkibi haqqında məlumat verən E.Əliyeva bildirib ki, 2024-2025-ci tədris ilində fakültədə təhsil alan 1262 tələbənin 914 nəfəri Azərbaycan, 130 nəfəri rus və 218 nəfəri ingilis bölməsində oxuyur. Eyni zamanda 17 tələbənin akademik borcu qalıb və tələbə kontingentində saxlanılıb. Həmin tələbələrin 8-i Azərbaycan, 5-i ingilis, 4-ü isə rus bölməsindədir.

Tədrisin stomatologiya ixtisası üzrə yeni standartlara uyğun aparıldığını söyləyən E.Əliyevanın sözlərinə görə, yeni standartda bəzi qeyri-ixtisas fənlərinin dərs saatları və kreditləri azaldılıb, ixtisas fənlərinin dərs saatları və kreditləri isə artırılıb: "Tələbələrin sərbəst işlərinin hazırlanması və müəllim tərəfindən qəbul edilməsi prosesində bəzi dəyişikliklər edilib. Hal-hazırda klinik kafedralarda müəllim tərəfindən müəyyən edilmiş bacarıqlar tələbədən soruşulur və bunun əsasında sərbəst iş qiymətləndirilir.

2024/25-ci tədris ilindən başlayaraq buraxılış kursunun yaz semestrində tədris olunan ortopedik stomatologiya, terapevtik stomatologiya, uşaq stomatologiyası, ağız və üz-çənə cərrahiyyəsi fənlərindən təcrübə dərsləri müxtəlif klinikalarda tədris olunub. Dekanlığın təşəbbüsü və universitet rəhbərliyinin dəstəyi ilə 2 poliklinika və 6 diş klinikası ilə müqavilələr bağlanılıb, qruplaşdırılan tələbələr təcrübə dərslərini həmin klinikalarda keçib. Bu da onların xəstə ilə təmasda olmağına və dərslərin praktiki şəkildə keçməsinə şərait yaradıb. Buraxılış kursunda təhsil alan tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi yeni üsulla aparılıb. Belə ki, iki mərhələdə imtahan verən tələbələr ilk mərhələdə nəzəri biliklərini şifahi olmaqla nümayiş etdirib, ikinci mərhələdə isə bacarıq imtahanı veriblər".

Hesabatda fakültənin elmi fəaliyyətinə də geniş yer ayrılıb. Bildirilib ki, kafedraların elmi işlərinin planları və hesabatları elmi-problem komissiyalarında, fakültə elmi şuralarında müzakirə edilərək təsdiq olunur. Hazırda kafedralarda nəzəri və klinik təbabətin müxtəlif problemlərini əhatə edən təsdiq edilmiş plan çərçivəsində və təşəbbüs mövzuları istiqamətində elmi-tədqiqat işləri aparılır. Son 5 il ərzində kafedra əməkdaşları tərəfindən 1342 elmi məqalə və tezis dərc olunub. Hesabat ili ərzində fakültədə 29 nəfər tibb elmləri doktoru və tibb üzrə fəlsəfə doktoru üzrə dissertasiya müdafiə edib. Hazırda isə 22 nəfər doktorant, 16 nəfər dissertant dissertasiya işi üzərində çalışır.

O da vurğulanıb ki, Stomatologiya fakültəsinin prioritet məsələlərindən biri həm tələbələr, həm də kafedra əməkdaşları arasında təlim-tərbiyə işinin düzgün qurulması və daim nəzarət altında saxlanılmasıdır.



Məruzə ətrafında çıxış edən Uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyeva, Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimov və Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının müdiri, professor Vəfa Pənahian fakültənin uğurları ilə yanaşı, mövcud problemlərə də toxunublar və hesabatı qənaətbəxş qiymətləndiriblər.

Məruzə və çıxışlarda səslənən fikirlərə münasibət bildirən rektor qeyd edib ki, son illərdə, xüsusilə də son üç il ərzində bu fakültədə müsbət istiqamətdə islahatlar aparılsa da, Stomatologiya fakültəsində bütün məsələlərin ideal səviyyədə olduğunu demək hələ tezdir: "Digər fakültələrdə olduğu kimi, burada da müəyyən problemlər mövcuddur. Bu problemlərdən ən önəmlisi nizam-intizamla bağlıdır. Barmaq izi sistemi, videomüşahidə və digər nəzarət mexanizmlərinin tətbiqinə baxmayaraq, hələ də arzuolunan nəticələr tam əldə edilməyib. Bəzi əməkdaşların iş vaxtına formal yanaşması ciddi narahatlıq doğurur". Bu məsuliyyətin birbaşa kafedra müdirlərinin üzərinə düşdüyünü deyən rektor bildirib ki, universitetdə formal əməkdaşlıq anlayışı qəbuledilməzdir və hər bir əməkdaş öz iş öhdəliklərini tam şəkildə yerinə yetirməlidir.




Çıxışında fakültənin maddi-texniki bazasının gücləndirilməsi məsələsinə də toxunan G.Gəraybəyli qeyd edib ki, fakültəyə çoxsaylı əcnəbi tələbələrin qəbul olunması praktik tədrisin keyfiyyətinə olan tələbləri daha da artırır. O, Stomatologiya fakültəsi üzrə böyük maliyyə həcmli avadanlığın alınmasına dair tender prosesinin artıq başa çatdığını qeyd edərək vurğulayıb ki, avadanlığın səmərəli istifadəsi, tədris prosesinə düzgün inteqrasiyası və tələbələrin bu imkanlardan real şəkildə faydalanması vacib məsələlərdir.

Tədris proqramları ilə bağlı məsələlərə də aydınlıq gətirən rektor son illərdə normativ tələblərə uyğun olaraq dərs saatlarının optimallaşdırıldığını və mövzuların yenidən strukturlaşdırıldığını diqqətə çatdıraraq bildirib ki, məqsəd bakalavriat mərhələsində tələbələrə əsas baza biliklərinin verilməsi, daha dərin və ixtisaslaşmış biliklərin isə rezidentura səviyyəsində formalaşdırılmasıdır.

Rezidenturaya dair mövcud problemlərə də diqqət çəkən rektor, xüsusilə gecə növbələri ilə bağlı klinik növbə sisteminin yenidən təşkili istiqamətində tədbirlərin görüldüyünü deyib.

Hesabat məruzəsinə dair müzakirələr bitdikdən sonra digər məsələlərə baxılıb. Mahmudova Mədinə Pünhan qızının təhsil ödənişinə güzəştlər edilməsi, "Klinik təcrübə" dərslərinin yekun qiymətləndirməsinin 2 mərhələli formada aparılması, "İctimai səhiyyə" ixtisasının V kurs tələbələrinə Kliniki biokimya (50 saat), Yoluxucu xəstəliklər (20 saat) və Patologiya (46 saat) fənlərinin yaz semestrində tədris olunması və ATU-nun Elmi Tədqiqatların İdarə Olunması Departamentində "Startap və kommersiyalaşdırma" şöbəsinin və ATU-da "Validasiya Komissiyası"nın yaradılmasına razılıq verilib.

Akkreditasiya Komissiyasının qeyd etdiyi tövsiyələrin icrasına dair hazırlanmış ATU-nun fəaliyyət planı sənədini də təsdiqləyən Böyük Elmi Şura dərslik, dərs vəsaitləri, metodik vəsaitlərin nəşri məsələlərini həll etməklə öz işini yekunlaşdırıb.

**Aytac ƏSƏDOVA**

---

**Dekabrın 22-də Ailə təbabəti kafedrasında "Klinik bacarıq-3" fənni üzrə obyektiv-strukturlaşdırılmış kliniki imtahanın (OSKİ) keçirilməsinə başlanılıb.**

## Rektor OSKİ imtahanını izləyib

Rektor, professor Gəray Gəraybəyli imtahan prosesinin təşkili və gedişi ilə yaxından tanış olub. Kafedranın müdiri, professor İbrahim İsayev imtahanın keçirilmə mexanizmi, tətbiq olunan yeniliklər və hazırlanmış yeni metodik rəhbərliklər barədə ətraflı məlumat verib.



İmtahan zamanı tələbələrin fikirləri də öyrənilib. Tələbələr imtahanın şəffaf və obyektiv şəkildə təşkil olunduğunu, müəllimlərin qiymətləndirmə zamanı ədalətli və obyektiv yanaşma nümayiş etdirdiklərini bildirərək, prosesdən razı qaldıqlarını nəzərə çatdırıblar.

Həmin gündən etibarən Tibb və sağlamlıq elmləri təhsili kafedrasında "Klinik bacarıq 2-1" fənni üzrə OSKİ imtahanı keçirilir. İmtahan ötən illərdə olduğu kimi, müasir OSKİ standartlarına uyğun şəkildə hazırlanmış stansiyalar əsasında təşkil olunub. Tələbələr semestr ərzində qazandıqları praktik bacarıqları 6 stansiyada nümayiş etdirirlər.

İmtahanın gedişini izləyən II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli və I Müalicə-profilaktika fakültəsinin dekan müavini, dosent Mahir Quliyev məmnunluqlarını bildiriblər.

## ATU-nun prorektoru Londonda nüfuzlu tədbirdə çıxış edib

**Londonda Azərbaycan-Böyük Britaniya Peşəkarları Assosiasiyasının (AABP) təşəbbüsü və Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyi ilə "Süni intellekt və geniş imkanlar: səhiyyə, mühəndislik və elmin transformasiyası Azərbaycan-Britaniya əməkdaşlığı çərçivəsində" adlı konfrans təşkil olunub.**



Tədbirdə "City of London"un keçmiş Lord meri Devid Vutton çıxış edərək konfransın əsas məqsədlərini diqqətə çatdırıb, Azərbaycan və Britaniya peşəkarları arasında əməkdaşlığın inkişafının əhəmiyyətindən danışıb. Konfrans çərçivəsində keçirilən panel müzakirələrdə Böyük Britaniya və Avropanın aparıcı universitetləri, elmi-tədqiqat mərkəzləri və texnologiya şirkətlərini təmsil edən ekspertlər dinlənilib.

Tədbirdə universitetimizin Elmi işləri üzrə prorektoru, professor Məlahət Sultan çıxış edərək ATU-da aparılan müasir elmi tədqiqatların metodologiyası, laboratoriya və klinik araşdırmaların təşkili barədə məlumat verib. O, elmi nəticələrin praktik tətbiqlərə çevrilməsi, səhiyyədə innovativ həllərin inkişafı istiqamətində görülən işləri vurğulayıb, eyni zamanda süni intellektin tədqiqat və diaqnostika sahələrində artan roluna diqqət çəkib.

---

**Cari semestrdə Radiologiya kafedrasında tədris olunan "Diaqnostik radiologiya" fənni üzrə sərbəst işlərin qiymətləndirilməsi müasir tədris yanaşmalarına uyğun olaraq klinik bacarıqlar formatında təşkil olunub.**

## "Diaqnostik radiologiya" fənni üzrə klinik bacarıqlar qiymətləndirilib



Bu qiymətləndirmə tələbələrin yalnız nəzəri biliklərini deyil, eyni zamanda praktik hazırlıq səviyyəsini, klinik düşünmə və qərarvermə bacarıqlarını obyektiv şəkildə müəyyən etməyə xidmət edib.

Proses zamanı tələbələr dörd müxtəlif stansiyada radioloji müayinə üsulları üzrə bilik və bacarıqlarını nümayiş etdirərək təqdim olunmuş görüntüləri təhlil edib və düzgün diaqnostik yanaşma ortaya qoyublar.

Qiymətləndirmədə universitetin Tədris işləri üzrə prorektoru, professor Anar Ağayev və II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli iştirak edərək öz təklif və tövsiyələrini bildiriblər.

## Əməkdaşımız yubiley medalı ilə təltif olunub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 20 fevral 2025-ci il tarixli Fərmanı ilə təsis olunmuş "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" yubiley medalı öz sahiblərinə təqdim edilir.**

Təltif olunanlar arasında Azərbaycan Tibb Universitetinin "Təbib" qəzetinin baş redaktoru, tanınmış jurnalist Məğrur Əliyev (Əli Polad) də var. Qeyd edək ki, əməkdaşımız həm də Vətən müharibəsi iştirakçısıdır və döyüşlərdəki şəxsi şücaətinə görə, Ali Baş Komandanın sərəncamları ilə bir sıra medallarla təltif olunub.



Bu gün Mətbuat Şurasının sədri Rəşad Məcid "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" yubiley medalını M.Əliyevə təqdim edib.

# Tələbə Elmi Cəmiyyətinin illik konfransı keçirilib

## TEC Şurasının yeni tərkibi və rəhbərlik seçilib



**Tələbə Elmi Cəmiyyətinin illik konfransı keçirilib, tədbirdə TEC-in fəaliyyəti və universitetdə elmi-tədqiqat işlərinin inkişafı ilə bağlı bir sıra mühüm məsələlər müzakirə edilib.**

Konfransı Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan açıb. O, çıxışında TEC-in universitetin elmi həyatında mühüm rolunu vurğulayaraq, gənc tədqiqatçıların elmi potensialının inkişafının əhəmiyyətini qeyd edib. Prorektor TEC-in həyata keçirdiyi tədbirlərin elmi mühitin formalaşmasına verdiyi töhfələrdən danışıb və konfrans iştirakçılarına uğurlar arzulayıb.



Daha sonra Elmi Tədqiqatların İdarə Olunması Departamentinin rəhbəri, professor Eldar Qarayev çıxış edərək, TEC-in elmi-tədqiqat fəaliyyətinin koordinasiyasında və gənc alimlərin elmi prosesə cəlb olunmasında oynadığı rolu vurğulayıb, universitetdə aparılan elmi tədqiqatların keyfiyyətinin artırılması və nəticələrin beynəlxalq səviyyədə tanıdılmasının vacibliyini diqqətə çatdırıb.

Konfrans TEC-in elmi rəhbəri, dosent Nərgiz Məmmədovanın çıxışı ilə davam edib. O, gündəlikdəki məsələləri sadalayaraq, mövzular haqda ətraflı məlumat verib.

TEC-in əsasnaməsi müzakirəyə çıxarılaraq təsdiq olunduqdan sonra Cəmiyyətin sədri, II Müalicə-profilaktika fakültəsinin tələbəsi Həmid Səfərli il ərzində görülmüş işlər və həyata keçirilmiş tədbirlər barədə hesabatı təqdim edib. Hesabat iştirakçılar tərəfindən qənaətbəxş qiymətləndirilib.

Sonra növbəti il üçün nəzərdə tutulmuş fəaliyyət planı müzakirə edilib, iştirakçıların təklifləri nəzərə alınaraq təsdiq olunub. Eyni zamanda, TEC-in Şurasının yeni tərkibi səsvermə ilə təsdiqlənib.

Konfransın ikinci hissəsində müxtəlif fakültələrdən olan tələbələr çıxış edərək, TEC-in fəaliyyəti ilə bağlı öz fikirlərini və təkliflərini səsləndiriblər.

Növbəti gün TEC Şurasının yeni tərkibdə ilk iclası baş tutub. İclasın gündəliyindəki əsas məsələlər Şuranın sədri və sədr müavinlərinin seçkisi olub. Sədr vəzifəsi uğrunda Röyal Kazımov, Zeynəb Əlizadə və Nigar Babayeva mübarizə aparıb, hər biri öz platformasını iştirakçılara təqdim edib.

Şəffaflıq, obyektivlik və bərabər imkanlar prinsipləri əsasında təşkil olunan gizli səsvermənin nəticələrinə görə, səslərin əksəriyyətini toplayan Nigar Babayeva sədr seçilib.

Seçkinin növbəti mərhələsində açıq səsvermə yolu ilə altı sədr müavini müəyyənləşdirilib. Belə ki, Röyal Kazımov fakültələrlə iş və təhsilalanların məlumatlandırılması, Ali Ghorbaniazar universitetlərarası əlaqələr, Turhan Selçuk xarici təhsilalanlarla iş, Shayan Hashempour konfrans və digər tədbirlərin təşkili, Fatimə Cəfərova informasiya texnologiyaları və texniki işlər, Aybəniz Həşimova isə insan resursları və kargüzarlıq üzrə sədr müavinləri seçilib.

# Polis rəisi tələbələri ayıq-sayıq olmağa çağırıb

Tələbələr üçün növbəti maarifləndirici tədbir "Narkomaniyaya və kibercinayətkarlığa qarşı mübarizə" mövzusunda təşkil olunub. Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov tədbiri açaraq bildirib ki, narkomaniya və kibercinayətkarlıq müasir cəmiyyətlər üçün ciddi təhlükə yaradan qlobal problemlər sırasındadır.

Onun sözlərinə görə, bu mövzular gələcək həkimlər üçün xüsusi əhəmiyyət kəsb edir: "Narkotik asılılığı olan şəxslər ilk növbədə həkimlərə müraciət edir. Buna görə də tələbələr cəmiyyətdə həmin şəxslərin davranış xüsusiyyətlərini, aparılacaq müalicə prosesini və həkim kimi düzgün yanaşmanı bilməlidirlər".





Prorektor tədbirdə iştirak edən Nəsimi Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirib, narkomaniyanın cəmiyyətdə yaratdığı fəsadlar, törədilən cinayətlər və profilaktik tədbirlər barədə hüquq-mühafizə orqanlarının geniş məlumat və təcrübəyə malik olduğunu vurğulayıb.

Daha sonra söz Nəsimi Polis İdarəsinin rəisi, polis polkovniki Vüqar Ağayevə verilib. O, tədbirin əsas məqsədinin narkomaniya və kibercinayətkarlıq kimi təhlükəli sosial problemlərə diqqət çəkmək, gəncləri bu risklərdən qorumaq olduğunu bildirib. Polis rəisi qeyd edib ki, narkomaniya gənclərin sağlamlığını və milli genofondu məhv edən ən təhlükəli sosial bəlalardan biridir və bu problem qlobal xarakter daşıyır. Çıxışında kibercinayətkarlıq mövzusuna da toxunan V.Ağayev vurğulayıb ki, informasiya texnologiyalarının sürətli inkişafı fonunda onlayn fırıldaqçılıq, şəxsi məlumatların oğurlanması və müxtəlif kiberhücumlar artmaqdadır. O, tələbələrə sosial şəbəkələrdə və internet mühitində şəxsi məlumatların qorunması, şübhəli linklərdən və naməlum mənbələrdən gələn mesajlardan uzaq durmaq barədə tövsiyələr verib. Tədbir iştirakçılarına kibercinayətkarlıqdan qorunma yollarını əks etdirən maarifləndirici broşürlər də paylanıb. Tədbir zamanı narkomanların narkotik asılılığına necə cəlb olunduğunu, narkomaniyanın insan həyatına və ailələrin taleyinə vurduğu ağır zərbələri əks etdirən videoçarx nümayiş etdirilib.

Sonda V.Ağayev narkomaniyaya və kibercinayətkarlığa qarşı mübarizədə hüquqi tədbirlərlə yanaşı, maarifləndirmənin xüsusi əhəmiyyət daşıdığını vurğulayıb və tələbələri bu kimi təhlükələrə qarşı ayıq-sayıq olmağa çağırıb.

**Dekabrın 16-da İctimai səhiyyə fakültəsinin və Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə "İxtisasını tanıt" adlı müsabiqə keçirilib. Müsabiqənin əsas məqsədi tələbələrin təhsil aldıqları ixtisasları dərindən tanımaları, bu ixtisasların cəmiyyət üçün əhəmiyyətini araşdırmaları və əldə etdikləri bilikləri təqdimat yolu ilə başqalarına çatdırmaları olub.**

# İxtisasını daha yaxşı tanıdanlar mükafatlandırılıb

Tədbirin açılışında çıxış edən İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva bildirib ki, bu müsabiqə tələbələrə seçdikləri ixtisası nə dərəcədə dərk etdiklərini, onun gələcəkdəki rolunu necə gördüklərini və bu bilikləri auditoriyaya necə ötürdüklərini nümayiş etdirmək imkanı yaradır. O, müasir dövrdə ictimai səhiyyə mütəxəssisinin analitik düşünmə, qərar qəbuletmə, komandada işləmə və effektiv ünsiyyət bacarıqlarına malik olmasının vacibliyini vurğulayıb: "Əminəm ki, bu gün təqdim olunan çıxışlar peşəkar məzmun, elmi yanaşma və səmimi maraqla zəngin olacaq. Xüsusi dəstəyinə görə THİK sədri Qoşqar İsmayılova təşəkkürümüzü bildirir, gələcəyin mütəxəssislərinə bu yolda uğurlar arzulayırıq".



Fakültənin II kurs tələbəsi Vüqar Əlizadə çıxış edərək bildirib ki, "İxtisasını tanıt" layihəsi uzun illərdir həyata keçirilir və əsas məqsədi ictimai səhiyyə ixtisaslarının mahiyyətini, bu sahənin cəmiyyət üçün əhəmiyyətini tələbələrə aşılamaqdır. Onun sözlərinə görə, layihə çərçivəsində cəmiyyətdə mövcud olan yanlış təsəvvürlərin aradan qaldırılmasına da töhfə verilir. İkinci ali təhsil alan Aydan İsazadə qeyd edib ki, onun ilk ali təhsili qida məhsulları mühəndisliyi üzrə olub və sonradan ictimai səhiyyə ixtisasını şüurlu şəkildə seçib. O, ictimai səhiyyənin yalnız bu gün deyil, gələcək üçün də böyük əhəmiyyət daşıdığını vurğulayıb: "Bu sahə geniş və zəngin perspektivlərə malikdir. Bir çox inkişaf etmiş ölkələrdə bu ixtisas artıq geniş şəkildə tanınır və yüksək qiymətləndirilir".

Bundan sonra İctimai səhiyyə, Fizioterapiya və tibbi reabilitasiya, Tibb bacısı (qardaşı) işi ixtisasları tələbələr tərəfindən tanıdılıb. Hər bir iştirakçı öz ixtisasının vacibliyini və cəmiyyət üçün əhəmiyyətini peşəkarlıqla təqdim edib.

Müsabiqə İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, dosent Yaqut Hacıyeva, Qidalanma və tibbi ekologiya kafedrasının müdiri, dosent Fəridə Əli və Fizioterapiya və reabilitasiya kafedrasının müdiri, dosent Paşa Mehdiyevdən ibarət münsiflər heyəti tərəfindən qiymətləndirilib. Qiymətləndirmə zamanı mövzunun əhatəliliyi, elektron təqdimatın keyfiyyəti və iştirakçıların nitq bacarığı əsas meyarlar kimi götürülüb.

Müsabiqədə Tibb bacısı (qardaşı) işi ixtisası üzrə II kurs tələbəsi Fatimə Əliyeva I, Fizioterapiya və reabilitasiya ixtisası üzrə I kurs tələbəsi Ayşən Bədəlzadə II, Tibb bacısı (qardaşı) işi ixtisası üzrə I kurs tələbəsi Aygül Qafarlı III yerə layiq görülərək diplom və hədiyyələrlə mükafatlandırılıblar, tanıtım çıxışı edən digər tələbələrə isə sertifikatlar təqdim olunub.

# Tələbələrə tədrisdəki yeniliklər barədə məlumat verilib



**İctimai səhiyyə fakültəsinin 5-ci kurs tələbələri ilə görüş keçirilib. Tədbirdə çıxış edən fakültə dekanı, dosent Qalina Qəniyeva bildirib ki, Tədris Departamentinin rəhbəri, dosent Kamandar Yaqubov magistratura və rezidentura pillələri ilə bağlı yenilikləri tələbələrin diqqətinə çatdıracaq və onları maraqlandıran suallara aydınlıq gətirəcək.**

Daha sonra K.Yaqubov tələbələrin gələcək təhsili və karyera seçimləri ilə bağlı mühüm məqamları izah edib.

Onun sözlərinə görə, universitetin Dövlət İmtahan Mərkəzi və Səhiyyə Nazirliyi ilə apardığı müzakirələr zamanı məlum olub ki, tələbələr gələcək taleləri ilə bağlı bu qurumlara çoxsaylı müraciətlər ünvanlayıblar.

K.Yaqubov qeyd edib ki, ATU ölkədə subbakalavr, bakalavr, əsas baza ali, magistratura, rezidentura və doktorantura səviyyələrini özündə birləşdirən nadir ali təhsil müəssisələrindəndir.

Onun sözlərinə görə, əsas baza ali təhsil pilləsi üzrə – ictimai səhiyyə, stomatologiya, tibb və hərbi tibb ixtisaslarını əhatə edən bir sıra yeniliklər artıq rəsmiləşib. Nazirlər Kabinetinin yeni qərarına əsasən, gələn ildən ictimai səhiyyə ixtisası əsas baza ali pilləsindən çıxarılaraq bakalavr səviyyəsinə keçiriləcək. Bu dəyişiklik təkcə mövcud tələbələrə deyil, gələcək abituriyentlərə də şamil olunacaq.

Görüş zamanı tələbələr diferensial qiymətləndirmə və fərqlənmə (qırmızı) diplomunun verilmə qaydaları barədə də məlumatlandırılıb. Bildirilib ki, fərqlənmə diplomu əldə etmək üçün tələbə imtahanların ən azı 75 faizindən "A", qalan hissəsindən isə "B" qiyməti almalı, həmçinin bütün yekun qiymətləndirmələrdən "A" toplamalıdır.

Departament rəhbəri əlavə edib ki, məzunlar təhsilini üç əsas istiqamət üzrə davam etdirə bilərlər: magistratura, rezidentura və doktorantura. Bu məqsədlə tədris proqramındakı bəzi uyğunsuzluqların aradan qaldırılması üçün universitet Dövlət İmtahan Mərkəzi və Səhiyyə Nazirliyi ilə razılıq əldə edib.

Razılaşmaya əsasən, 5-ci kursun ikinci semestrində tələbələrə əlavə olaraq patoloji anatomiya, yoluxucu xəstəliklər və klinik mikrobiologiya fənləri tədris olunacaq.

İctimai səhiyyə ixtisası üzrə məzunlar magistratura səviyyəsində "tətbiqi ictimai səhiyyə", "əmək sağlamlığı", "ətraf mühit və sağlamlıq", "epidemiologiya", "infeksiyaların profilaktikası və nəzarət", rezidentura səviyyəsində isə "tibbi biokimya", "tibbi mikrobiologiya", "yoluxucu xəstəliklər və kliniki mikrobiologiya" ixtisaslarında təhsil ala biləcəklər.

Sonda K.Yaqubov tələbələri maraqlandıran çoxsaylı sualları ətraflı şəkildə cavablandırıb.

**Qabil ABDULLAYEV**

# “Hədəfimiz ATU-nun regional və qlobal nüfuzunu daha da yüksəltməkdir”

## Dosent Törə Sadıqova beynəlxalq təhsil və elmi mühitə daha dərin inteqrasiyanın istiqamətlərindən danışır

***Müsahibimiz Azərbaycan Tibb Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dos ent Törə Sadıqovadır.***

**– Universitetimizdə beynəlxalq əməkdaşlıq sahəsindəki hazırkı vəziyyəti necə qiymətləndirirsiniz və bu sahədə əsas prioritetlər nədən ibarətdir?**

– Hazırda Azərbaycan Tibb Universitetində beynəlxalq əməkdaşlığın inkişaf tempi son illərin ən yüksək səviyyəsindədir. Əvvəllər əsasən protokol xarakteri daşıyan əlaqələr, bu gün artıq tədris prosesinə, klinik praktikaya və elmi fəaliyyətə birbaşa təsir göstərən, real və nəticəyönümlü tərəfdaşlıqlara çevrilməkdədir.

Tələbə, rezident və akademik heyətin mobilliyinin genişlənməsi, birgə elmi-tədqiqat layihələrinin sayının artması, qısamüddətli klinik və akademik proqramların intensivləşməsi bu müsbət dinamikanın əsas göstəricilərindəndir.



Məsələn, 2025-ci ildə Erasmus+ proqramı çərçivəsində ATU-dan 3 nəfər müəllim və tələbə xarici universitetlərdə, eyni zamanda 3 nəfər xarici vətəndaş universitetimizdə akademik fəaliyyət göstərib. Orhun mübadilə proqramı üzrə isə ATU-dan 17 nəfər müəllim və tələbə xaricdə, 7 nəfər əcnəbi vətəndaş universitetimizdə təhsil və tədris prosesinə cəlb olunub.

Bu sahədə əsas prioritetimiz universitetin beynəlxalq təhsil və elmi mühitə daha dərin inteqrasiyasını təmin etməkdir. Yeni strateji tərəfdaşlıqların qurulması, tədrisdə beynəlmiləlləşmə prosesinin gücləndirilməsi, innovativ və rəqəmsal tədris modellərinin qabaqcıl xarici təcrübə əsasında ATU-ya transferi və daha geniş auditoriyaya çatdırılması əsas hədəflər sırasındadır.

**– Xarici universitetlərlə qurulan tərəfdaşlıqlar tələbələr və müəllim heyəti üçün hansı imkanları yaradır?**

– Belə tərəfdaşlıq münasibətləri həm tələbələr, həm də akademik heyət üçün geniş inkişaf perspektivləri formalaşdırır. Tələbələrin tibbi bilik və bacarıqları yalnız yerli tədris mühiti ilə məhdudlaşmır, onlar müxtəlif ölkələrdə klinik praktika, müasir tədris modelləri və yeni metodoloji yanaşmalara birbaşa çıxış əldə edirlər.

Bu il Orhun mübadilə proqramı çərçivəsində 7 tələbəmiz Türkiyənin müxtəlif ali təhsil müəssisələrində fərqli fakültələr üzrə təhsil alıb.

Müəllim və tədqiqatçı heyət üçün isə bu əməkdaşlıqlar akademik təcrübənin zənginləşdirilməsi, ixtisasartırma proqramlarında iştirak, beynəlxalq konfrans və seminarlarda təmsil olunmaq, eləcə də birgə elmi tədqiqatların aparılması baxımından mühüm əhəmiyyət kəsb edir.

**– ATU-nun beynəlxalq proqramlarda iştirak səviyyəsi barədə nə deyə bilərsiniz?**

– Son illərdə ATU-nun beynəlxalq proqramlarda iştirakı əhəmiyyətli dərəcədə artıb. Universitet müxtəlif beynəlxalq mübadilə şəbəkələrində fəal şəkildə təmsil olunur, tələbə və rezident mobilliyi genişlənir, müəllim heyətinin xarici akademik səfərləri, təlim və elmi əməkdaşlıqları intensivləşir. 2025-ci ildə Erasmus+ və Orhun proqramları çərçivəsində ATU-dan ümumilikdə 30 nəfər iştirak edib.

Bununla yanaşı, beynəlxalq ali təhsil müəssisələrinin tədris proqramları ilə tam uyğunlaşan, müasir metodikaya əsaslanan kurikulumun formalaşdırılması prosesi hələ də davam etdiyindən, mübadilə proqramlarının daha da optimallaşdırılması və genişləndirilməsi müəyyən zaman tələb edir.

**– Törə xanım, universitetimizin beynəlxalq reytinqlərdə mövqeyinin gücləndirilməsi üçün hansı addımlar atılır?**

– Bu, ATU-nun bütün struktur bölmələrinin birgə, koordinasiyalı və sistemli fəaliyyətini tələb edən genişmiqyaslı prosesdir. Bu istiqamətdə artıq bir neçə ildir ki, müəyyən edilmiş prioritet sahələr üzrə ardıcıl iş aparılır.

Elmi Departamentin məlumatlarına əsasən, son iki il ərzində elmi nəşrlərin həm sayı, həm də keyfiyyəti əhəmiyyətli dərəcədə artıb. Xüsusilə yüksək impakt faktorlu beynəlxalq jurnallarda məqalələrin dərcini stimullaşdıran təşviq mexanizmlərinin tətbiqi və əməkdaşların elmi fəaliyyətinə göstərilən institusional dəstək bu müsbət dinamikanın formalaşmasında mühüm rol oynayıb.

Bundan əlavə, ingilisdilli tədris proqramlarının genişləndirilməsi, xarici tələbələrin cəlbi üzrə yenilənmiş strategiyanın həyata keçirilməsi, beynəlxalq elmi əməkdaşlıqların şaxələndirilməsi və rəqəmsal təhsil infrastrukturunun modernləşdirilməsi beynəlxalq reytinq meyarlarına uyğunluğun artırılmasına xidmət edir.

Xüsusilə Beynəlxalq əlaqələr şöbəsi QS və digər nüfuzlu beynəlxalq reytinqlərdə ATU-nun mövqeyinin gücləndirilməsi istiqamətində intensiv fəaliyyət göstərir, universitetin beynəlxalq layihələrdə iştirakını təşviq edir, xarici akademik əməkdaşlıqları koordinasiya edir, tələbə və müəllim mübadilələrinin sayının artırılmasına töhfə verir, eləcə də müvafiq məlumatların reytinq qurumlarına vaxtında və düzgün şəkildə təqdim olunmasını təmin edir.

**– Beynəlxalq əlaqələrin gələcək inkişafı üzrə hansı planlar nəzərdə tutulur?**

– ATU-nun beynəlxalq əlaqələrinin gələcək inkişafı universitetin ümumi inkişaf strategiyası ilə tam uzlaşır. Əsas məqsəd Azərbaycan Tibb Universitetinin regional və qlobal miqyasda nüfuzunu daha da artırmaq, onu qlobal tibbi təhsil və elmi mühitdə aktiv mövqeyə malik aparıcı ali təhsil müəssisəsinə çevirməkdir.

Gələcək planlara beynəlxalq tərəfdaşlıq şəbəkəsinin genişləndirilməsi, birgə elmi və tədris mərkəzlərinin yaradılması, yeni mobillik proqramlarının tətbiqi, xarici mütəxəssislərin ATU-da mühazirə və seminarlar keçməsi üçün imkanların artırılması, eləcə də beynəlxalq akademik və elmi layihələrin sayının yüksəldilməsi daxildir.

# Əməkdaşımız Azərbaycan Kardiologiya Cəmiyyətinin sədri seçilib



Azərbaycan Kardiologiya Cəmiyyətinin (AKC) təşkilatçılığı ilə XIV Milli Kardiologiya Konqresi keçirilib. Tədbir üç gün davam edib və təxminən 600 həkim və səhiyyə mütəxəssisi iştirak edib.

Tədbirin əsas məqsədi kardiologiyanın aktual problemlərinin müzakirəsi, müasir diaqnostika və müalicə yanaşmalarının paylaşılması, elmi bilik və təcrübə mübadiləsinin gücləndirilməsi, peşəkar həmrəyliyin artırılması olub. Konqresdə Türkiyə, Avropa və digər ölkələrdən dəvət olunmuş nüfuzlu xarici məruzəçilər iştirak edərək beynəlxalq təcrübə və yenilikləri bölüşüblər.

Konqresin ikinci günü Cəmiyyətin növbəti dövr üçün sədri və İdarə Heyəti üzvlərinin seçkisinə həsr olunub. Səsvermənin nəticələrinə əsasən, universitetimizin Tədris Cərrahiyyə Klinikasının kardioloqu, t.e.d. Yasmin Rüstəmova 93% səslə AKC-nin sədri seçilib.

Bu nəticə onun peşəkar sahədəki nüfuzunun və kardiologiya sahəsindəki uzunmüddətli elmi və praktik fəaliyyətinin göstəricisidir. Seçkilər zamanı Y.Rüstəmovanın ölkədə və beynəlxalq arenada kardiologiyanın inkişafı, müasir diaqnostika və müalicə metodlarının tətbiqi, həmçinin həkimlərin bilik və bacarıqlarının artırılması istiqamətindəki töhfələri xüsusi qeyd olunub.



# Hərbi tibb fakültəsinin elmi fəaliyyəti müzakirə edilib

Dekabrın 18-də Hərbi tibb fakültəsinin elmi şurasının ilin yekunlarına həsr edilmiş iclası keçirilib.

Elmi şuranın sədri, fakültənin rəisi, tibb xidməti polkovniki Məharət Rzayev iclası açaraq gündəlikdə duran məsələləri diqqətə çatdırıb.

Elmi şuranın katibi, tibb xidməti polkovnik-leytenantı, milli təhlükəsizlik və hərb elmi üzrə fəlsəfə doktoru Saleh Əhmədovun fakültə Tələbə Elmi Cəmiyyətinin 2025-ci ildəki elmi fəaliyyətinə dair hesabat məruzəsi dinlənilib və məruzə qənaətbəxş qiymətləndirilib.

Daha sonra Hərbi terapiya kafedrasının rəisi, tibb xidməti polkovniki Abbas Quliyev, Tibbi profilaktika kafedrasının rəisi, tibb xidməti polkovniki Şahin Süleymanov, Hərbi cərrahiyyə kafedrasının rəisi, tibb xidməti polkovnik-leytenantı Şahin Əliyev və Tibb xidmətinin təşkili və taktikası kafedrasının rəisi, tibb xidməti polkovniki Adil Hüseynov rəhbərlik etdikləri kafedraların cari ildəki elmi fəaliyyəti haqqında məruzə ilə çıxış ediblər.

Sonda növbəti il üçün elmi fəaliyyət planı barədə müzakirələr aparılıb və fakültənin rəisi elmi şura üzvlərinə uğurlar diləyərək, onları qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramları münasibətilə təbrik edib.

# Antibiotiklərə rezistentlik mövzusunda tədbir keçirilib

İctimai səhiyyə fakültəsinin Səhiyyə Klubunun təşkilatçılığı ilə “Antibiotiklərə rezistentlik və ictimai səhiyyənin rolu” mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbirin məqsədi antibiotiklərin düzgün istifadə edilməməsi nəticəsində yaranan və hazırda qlobal ictimai səhiyyə problemi kimi dəyərləndirilən antibiotiklərə qarşı rezistentlik mövzusunda iştirakçıların biliklərini artırmaq olub. Görüş zamanı problemin elmi əsasları, yaranma səbəbləri və praktik nəticələri ətraflı müzakirə edilib.

Tədbirdə Tərbiyə işləri üzrə prorektor Mahir Səfərov, dekanlar İsrail Məhərrəmbəyli və Qalina Qəniyeva iştirak ediblər.

Səhiyyə Klubunun sədri Familə Babazadənin açılış nitqindən sonra mövzuya həsr olunmuş videoçarx izlənilib.

Maarifləndirici sessiyada spiker qismində Mikrobiologiya və immunologiya kafedrasının müdiri, professor Həqiqət Qədirova və Epidemiologiya və biostatistika kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru Azər Rəşidov çıxış ediblər.



Tədbirin sonunda interaktiv “Kahoot” oyunu təşkil olunub, ən fəal iştirakçılar hədiyyələrlə mükafatlandırılıb.

# “Mən necə edirəm?”in bu dəfəki mövzusu “qaraciyər rezeksiyaları” olub



Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında ənənəvi növbəti vebinar keçirilib. Vebinar universitetin Rezidentura və magistratura şöbəsinin təşkilatçılığı ilə “Mən necə edirəm?” layihəsi çərçivəsində baş tutub.

Tədbiri tibb elmləri doktoru, rezidentura üzrə məsul şəxs Elman Əzimov açaraq bildirib ki, layihə çərçivəsində ümumilikdə 11 vebinarın keçirilməsi nəzərdə tutulur ki, bu il onlardan artıq dördü uğurla reallaşıb.

Sonra vebinarın qonağı, Mərkəzi Gömrük Xəstəxanasının şöbə müdiri Namiq Novruzov “qaraciyər rezeksiyaları” mövzusunda məruzə ilə çıxış edərək praktik və nəzəri biliklərini rezidentlərlə bölüşüb. O, qaraciyərin anatomik quruluşunun daha yaxşı qavranılması üçün vizual modellərdən istifadənin vacibliyini vurğulayıb, bu modellərin qaraciyər seqmentlərinin yerləşməsi və funksional bölgüsünün izahında mühüm rol oynadığını qeyd edib: “Qaraciyər rezeksiyasının mümkün olmasını təmin edən əsas amillərdən biri bu orqanın yüksək regenerasiya qabiliyyətidir. Müasir elmi tədqiqatlara əsasən, rezeksiyadan sonra qaraciyər 2 həftə, maksimum 15 gün ərzində həcminin təxminən 90-95 faizini bərpa edə bilir. Bu göstəricilər əvvəlki illərdə irəli sürülən bir aylıq regenerasiya müddətinin daha qısa olduğunu sübut edir”.

Çıxışda Nakamura təsnifatları, tutulyar strukturlar və digər mühüm məqamlar da izah olunub, eləcə də məruzəçi tərəfindən həyata keçirilmiş nadir əməliyyatlardan hazırlanmış videogörüntülər nümayiş etdirilib. Təqdimat iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb, verilən suallar ətraflı cavablandırılıb.

Tədbirin sonunda Rezidentura və magistratura şöbəsinin müdiri, dosent İlhamə Mustafayeva çıxış edərək, aktual və əhatəli məruzəyə görə N.Novruzova təşəkkür edib.

## Fizioterapiya ixtisası üzrə OSPİ imtahanı keçirilib



İctimai səhiyyə fakültəsinin Fizioterapiya ixtisası üzrə OSPİ (bacarıq) imtahanı təşkil olunub. "Təbib" Tədris İdman Mərkəzində keçirilən imtahan I kurs tələbələri üçün "Bədən tərbiyəsi və idman hərəkətlərinin əsasları" fənni üzrə baş tutub.

Qeyd edək ki, OSPİ imtahanı 10 stansiyadan ibarət olub. Hər bir stansiyada tələbələrin praktik bacarıqları, hərəkətlərin düzgün icra texnikası, ardıcıllıq və təhlükəsizlik qaydalarına riayət etmə səviyyəsi qiymətləndirilib. Tələbələr imtahan zamanı fiziki hərəkətlərin icrası, düzgün bədən mövqelərinin seçilməsi və funksional bacarıqların tətbiqi üzrə tapşırıqları yerinə yetiriblər.

İmtahan prosesini İdman Mərkəzinin direktoru Qələndər Aslanov, İctimai səhiyyə fakültəsinin dekanı Qalina Qəniyeva, dekan müavini Nailə Məmmədova, Fizioterapiya və tibbi reabilitasiya ixtisası üzrə koordinator Vaqif Cəlilov və akademik məsləhətçi Arzu Məmmədli müşahidə ediblər. Onlar imtahanın gedişatına nəzarət edərək qiymətləndirmə prosesinin şəffaf və obyektiv aparılmasını təmin ediblər.

**Tədris Cərrahiyyə Klinikasında "Qalxanabənzər vəzin düyünlərinin müalicəsində müasir yanaşma: İnvaziv cərrahi əməliyyatlar. Alternativ psixologiya elmi və endokrinologiyada yeniliklər" mövzusunda elmi-praktik konfrans təşkil olunub.**

**Tədbir I Cərrahi xəstəliklər kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru, endokrinoloq Azər Hümbətov və Alman Cərrahi Lazer Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilib.**



# Endokrinologiyada alternativ psixologiya mövzusu maraqla qarşılanıb

Konfransı Rezidentura və magistratura şöbəsinin müdir müavini, Uşaq cərrahiyyəsi kafedrasının assistenti Namiq Xəlilov açaraq, qalxanabənzər vəzi düyünlərinin müalicəsində alternativ psixologiyanın müasir yanaşmalarla vəhdət təşkil etdiyini qeyd edib, gənc kadrlar və rezidentlər üçün praktik biliklərin əhəmiyyətini önə çəkib.

Həkim-endokrinoloq A.Hümbətov çıxışında elmi-praktik konfransların müasir tibbi biliklərin ötürülməsində mühüm rol oynadığını qeyd edib, minimal invaziv cərrahi əməliyyatlar və invaziv lazer üsulları haqqında ətraflı məlumat verib. O, qalxanabənzər vəzi düyünlərinin cərrahi müalicəsində müasir yanaşmalardan, tiroidektomiya əməliyyatının növlərindən, mümkün ağırlaşmalardan və əməliyyatdan sonrakı hormonəvəzedici müalicənin vacibliyindən danışıb.

Elmi konfransda, həmçinin Oksford Akademiyasının akademiki, "Alternativ psixologiya" elminin müəllifi, tibbi biologiya elmləri doktoru, professor, Beynəlxalq Ekoenergetika Akademiyasının "Tibbi biologiya və ekologiya" departamentinin direktoru Yaşar İbadov çıxış edib. O, tibb və təhsilin inteqrasiyasının əhəmiyyətindən, alternativ psixologiyanın XXI əsrin mühüm elmi yeniliklərindən biri olmasından və müəllifi olduğu enerji harmonizatoru cihazından bəhs edib.

Tədbirdə Alman Cərrahi Lazer Mərkəzinin direktoru, Ümummilli Lider Heydər Əliyev adına "Tibb və Təhsildə Birgə İnteqrasiya" layihəsinin müəllifi Jalə Mirsaab da çıxış edərək rəhbəri olduğu mərkəzin fəaliyyəti barədə məlumat verib.

Konfransda professor-müəllim heyəti, həkimlər, rezidentlər və dəvətli qonaqlar iştirak ediblər. Dəvətli qonaqlardan Əməkdar müəllim, elmi işçi Yeganə Cəfərova tədbirin maarifləndirici xarakterini yüksək qiymətləndirərək təşkilatçılara təşəkkürünü bildirib.

Elmi-praktik konfrans interaktiv formatda keçirilib, iştirakçıların çoxsaylı sualları spikerlər tərəfindən cavablandırılıb.

# Əməkdaşlarımızın fəaliyyəti



Birinci Uşaq Dəri-Zöhrəvi Dispanserində hiperpigmentasiya mövzusuna həsr olunmuş elmi-praktik konfrans təşkil olunub. Tədbir ATU-nun Dermatovenerologiya kafedrasının təşkilatçılığı və fəal iştirakı ilə baş tutub.

Konfransda kafedranın professor-müəllim heyəti, rezidentləri və Dispanserin həkimləri iştirak edib. Tədbir zamanı hiperpigmentasiyanın aktual tərəfləri, müasir diaqnostika və müalicə yanaşmaları, elmi yeniliklər və klinik təcrübələr ətrafında geniş məruzələr aparılıb.

Elmi-praktik konfrans interaktiv çıxışlar və müzakirələrlə yadda qalıb, iştirakçılar arasında elmi bilik və praktik təcrübə mübadiləsi üçün səmərəli imkan yaradıb. Dermatovenerologiya kafedrası gələcəkdə də klinik müəssisələrlə əməkdaşlıq çərçivəsində bu cür tədbirlərin keçirilməsini, müasir biliklərin tətbiqini və mütəxəssislərin peşəkar inkişafını davam etdirməyi planlaşdırır.

* * *




Nevrologiya kafedrasının əməkdaşları - dosent Şəhla Mehtiyeva, assistent Nuridə Tağıyeva və doktorant Sərxan Əmirquliyev Türkiyənin Antalya şəhərində Türk Nevroloji Dərnəyi tərəfindən təşkil olunan 61-ci Beynəlxalq Nevroloji Konqresdə iştirak ediblər.

Türkiyə, Balkan ölkələri, Kipr Türk Cümhuriyyəti və Azərbaycandan 1500-dən artıq nevroloqun qatıldığı nüfuzlu elmi tədbir müasir nevrologiyanın aktual problemlərinin müzakirəsi üçün mühüm platforma olub.

Konqres çərçivəsində kafedranın elmi iş planına uyğun olaraq "Məktəbyaşlı uşaqlarda baş ağrılarının epidemiologiyası" mövzusunda aparılan tədqiqatın ilkin nəticələri təqdim edilib. Mövzu ətrafında geniş müzakirələr aparılıb, eyni zamanda beynəlxalq elmi ictimaiyyət nümayəndələri ilə gələcək əməkdaşlıqların qurulması istiqamətində əhəmiyyətli əlaqələr yaradılıb.

Geniş miqyası, müasir formatı və yüksək elmi-tədris səviyyəsi ilə seçilən konqresə ümumilikdə 30-dan artıq azərbaycanlı nevroloq qatılıb. Tədbir çərçivəsində alim və həkimlərimiz müasir nevrologiyanın müxtəlif sahələrini əhatə edən məruzələr oxuyub, professor Sədaqət Hüseynova isə "Miqren və psixi komorbidlər" mövzusunda təqdimatla çıxış edib.

Qeyd edək ki, əvvəlki illərdə olduğu kimi, bu ilki konqres də nevrologiya üzrə bacarıq imtahanları, şifahi və poster təqdimat sessiyaları, eləcə də elmi və sosial tədbirləri özündə birləşdirib.

* * *




Azərbaycan Kardiologiya Cəmiyyətinin XIV Milli Konqresi ölkənin aparıcı kardioloqlarını, ürək-damar cərrahlarını və səhiyyə sahəsində çalışan mütəxəssisləri bir araya gətirib. Tədbir çərçivəsində ürək-damar xəstəliklərinin diaqnostikası və müalicəsinə həsr olunmuş müxtəlif elmi və praktik sessiyalar təşkil edilib.

Konqresin "Milli tədqiqatlar" sessiyasında Ailə təbabəti kafedrasının dosenti Arzu Bəydəmirova "Yaşlı xəstələrdə arterial hipertoniya zamanı f-kanal blokatorunun effektivliyinin klinik təhlili" mövzusunda məruzə ilə çıxış edib.

Məruzə zamanı tədqiqatçı qlobal demoqrafik dəyişikliklər fonunda Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən qəbul edilən "Sağlam yaşlanma onilliyi (2020-2030)" proqramına diqqət çəkib. Qeyd olunub ki, BMT çərçivəsində həyata keçirilən bu təşəbbüs yaşlı əhalinin sağlamlığının və həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlib və ÜST bu istiqamətdə qlobal səylərin əlaqələndirilməsində aparıcı rol oynayır.

Araşdırmanın nəticələrinə əsasən bildirilib ki, f-kanal blokatoru olan ivabradinin arterial hipertoniya və ritm pozğunluğu müşahidə olunan yaşlı xəstələrdə tətbiqi yüksək klinik effektivlik nümayiş etdirir. Preparat hemodinamik göstəricilərin və elektrokardioqrafik parametrlərin yaxşılaşmasına, aritmik epizodların tezliyinin azalmasına müsbət təsir göstərir və təhlükəsizlik profili ilə seçilir. Xüsusilə β-blokatorlara dözümsüzlük hallarında ivabradinin təyini məqsədəuyğun və üstün müalicə seçimi kimi qiymətləndirilib.

* * *




Özbəkistanın Səmərqənd Dövlət Tibb Universitetinin təşkilatçılığı ilə "Səmərqənd – 2020" VI Beynəlxalq Tibb Universitetləri Tələbələrinin Olimpiadası keçirilib.

Olimpiadanın əsas məqsədi tibbin müxtəlif sahələri və fundamental elmlər üzrə tələbələrin biliklərinin artırılması, elmi və yaradıcı potensialının inkişaf etdirilməsi olub. Genişmiqyaslı beynəlxalq tədbirdə Azərbaycan, Türkiyə, Almaniya, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Çin, Cənubi Koreya, Rusiya, Belarus, Tacikistan və digər ölkələr daxil olmaqla 30 ölkədən 60 ali tibb təhsil müəssisəsini təmsil edən, 41 fənn üzrə 1000-dən artıq tələbə iştirak edib.

Beynəlxalq olimpiadada Azərbaycan Tibb Universitetinin Nevrologiya kafedrasının dosenti Şəhla Məlikova nevrologiya sahəsi üzrə münsiflər heyətinin üzvü kimi təmsil olunub.

Səfər çərçivəsində Ş.Məlikova tərəfindən Səmərqənd universitetinin bazasında akademik mobillik proqramı çərçivəsində "Nevrologiya" ixtisası üzrə tələbələr üçün praktik məşğələlər və mühazirələr də keçirilib.

* * *



NATO-nun DEEP (Defence Education Enhancement Programme) proqramı çərçivəsində Milli Müdafiə Universiteti tərəfindən "Müdafiə təhsilinin genişləndirilməsi proqramının müdafiə və təhlükəsizlik sektorunda həyata keçirilən islahatlara töhfəsi (Experiences and best practices of DEEP's contribution to defence and security sector reforms)" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.

Heydər Əliyev adına Hərbi İnstitutda keçirilən tədbirdə plenar iclasdan sonra beş bölmə üzrə məruzələr dinlənilib. "Hərbi tibbi araşdırmalar" bölməsinin moderatorları Azərbaycan Tibb Universiteti Hərbi tibb fakültəsinin Tibbi profilaktika kafedrasının baş müəllimi, milli təhlükəsizlik və hərbi elmlər üzrə fəlsəfə doktoru, tibb xidməti polkovnik-leytenantı Saleh Əhmədov, dosent Fərhad Meybəliyev və Ukrainian Military Academy-nin zabiti Olexandr Raboshchuk olub. İki gün davam edən konfransın bu bölməsi üzrə müxtəlif hərbi tibbi mövzularda ümumilikdə 39 təqdimat dinlənilib.

"Hərbi tibbi araşdırmalar" bölməsi çərçivəsində Tibbi profilaktika kafedrasının rəisi, tibb xidməti polkovniki Şahin Süleymanov, fakültənin rezidentləri - tibb xidməti kapitanları Dursun Əliyev və Aynəddin Aslanov, fakültənin V kurs kursantları Amil Cəfərov və Nihad Həsənli, həmçinin IV kurs tələbəsi Elmir Mirzəyev müxtəlif mövzularda məruzələrlə çıxış ediblər.

* * *



Tədris Cərrahiyyə Klinikasında rezidentlər üçün ana ölümünün səbəbləri, risklər və onların qarşısının alınması yolları əhatə edən seminar təşkil olunub.

Seminarda I Mamalıq-ginekologiya kafedrasının dosenti Şərifə Vahabova tərəfindən geniş məruzə təqdim edilib. Məruzədə ana ölümünün əsas səbəbləri və risk faktorları ətraflı şərh olunub, həmçinin ana ölümlərinin qarşısının alınması üçün müasir strategiyalar, antenatal qulluq prosesinin əhəmiyyəti və ana ölümlərinə səbəb olan xəstəlik tarixlərinin təhlili kimi mövzulara toxunulub.

Ş.Vahabova, xüsusilə ölkədə ana ölümünün profilaktikasında rezidentlərin bilik və bacarıqlarının artırılmasının vacibliyini vurğulayıb və praktik nümunələr üzərində risk faktorlarının düzgün qiymətləndirilməsinin önəmini diqqətə çatdırıb. Seminar həm nəzəri, həm də interaktiv formada keçirilib, rezidentlərin sualları ətraflı cavablandırılıb.

# Növbəti seminarda mamalığın aktual problemlərindən danışılıb

**Rezidentura və magistratura şöbəsi və II Mamalıq-ginekologiya kafedrasının birgə təşkilatlığı ilə Tədris Cərrahiyyə Klinikasında rezidentlər üçün "Mamalıq praktikasında hipertenziv vəziyyətlər" mövzusunda seminar keçirilib.**





Kafedranın müdiri, professor Hicran Bağırova mövzunun aktuallığını diqqətə çatdıraraq preeklampsiyanın etiologiyası, klinikası haqqında geniş məlumat verib. Bildirib ki, hamiləlik dövründə yüksək arterial təzyiq adətən baş ağrıları, başgicəllənmə, qulaqlarda küy, təngnəfəslik, ürəkdöyünmə, tez yorulma əlamətləri ilə təzahür edir. Arterial təzyiq hamiləliyin 1-ci üçaylığı zamanı azalır. Buna səbəb prostasiklinin və endotelial boşalma faktorunun sintezinin artmasıdır. Hamiləliyin 2-ci üçaylığında arterial təzyiq stabil olaraq əvvəlki vəziyyətdə qalır. Hamiləliyin sonuncu aylarına doğru təzyiq artmağa başlayır. Adətən hamiləlik zamanı təzyiqin artmasına səbəb böyrəkdə baş verən patoloji dəyişikliklərdir.

Rezidentura və magistratura şöbəsinin müdir müavini, Uşaq cərrahlığı kafedrasının assistenti Namiq Xəlilov davamlı tibbi təhsilin fasiləsiz inkişafının vacibliyindən danışıb və rezidentlərin hazırlığına xüsusi diqqət yetirdiyinə görə universitet rəhbərliyinə minnətdarlığını bildirib. O, seminarın mövzusu ilə bağlı fikirlərini də söyləyərək, yüksək arterial təzyiqin hamilələr üçün bir sıra təhlükələr yaratdığını, preeklampsiya, eklampsiya, insult, ağciyər ödemi, HELLP sindromu kimi risk faktorlarını özündə daşıdığını deyib.

Bundan sonra kafedranın dosenti İradə Tağıyevanın adıçəkilən mövzuya dair məruzəsi dinlənilib. Mamalığın ən aktual problemi olan hipertenziv vəziyyətlərdən söz açan məruzəçi qeyd edib ki, bu vəziyyətlər fonunda hamiləlik fəsadla keçir, daha çox isə preeklampsiya və eklampsiya ilə ağırlaşır: "Diaqnoz - arterial təzyiqin ölçülməsi, EKQ, ExoKQ, böyrəküstü vəzi və böyrəklərin USM, qan və sidiyin laborator analizlərinin köməyilə qoyulur. Hamiləliyin bu ağırlaşması ana ölümünün əsas səbəblərindən biridir. Perinatal ölümdə 70-75 % təşkil edir. Əsasən də, preeklampsiyanın ağırlaşması olan HEELP sindromunda, qaraciyərin kəskin piy distrofiyasında təhlükəlidir. Preeklampsiyada poliorqan, həmçinin bütün həyati vacib orqanların, xüsusən də qaraciyər və böyrəklərin çatışmazlığı baş verir".

Professorlar Ş.Qədimova, Ə.Bağışov, dosentlər E.Sarıyeva, S.Bağırova və dr. L.Həşimova mövzu ətrafında çıxış edərək öz tövsiyələrini veriblər.

Seminarın sonunda məruzəçi mövzuya aid sualları cavablandırıb və rezidentlərlə geniş diskussiya aparılıb.

# "Təcrübədən tədrisə" layihəsində stress mövzusuna toxunulub



Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasında "Təcrübədən tədrisə" layihəsi çərçivəsində növbəti mühazirə təşkil olunub. Psixologiya üzrə fəlsəfə doktoru, dosent Aynur Bünyatova ictimai səhiyyə ixtisasının III kurs tələbələri üçün "Stressin psixogigiyena və psixoprofilaktikası" mövzusunda mühazirə ilə çıxış edib. A.Bünyatova "stress", "stressor" anlayışları, stressin əsas xüsusiyyətləri, növləri və yaranma səbəbləri barədə ətraflı məlumat verib, yeniyetmələrdə stress vəziyyətinin formalaşmasında müxtəlif stressorların rolunu izah edib. Həmçinin stressə davamlılıq, stress və distressin profilaktikası məsələləri diskussiya formatında müzakirə olunub.

Qeyd edək ki, 20 illik praktiki təcrübəyə malik olan Aynur Bünyatova UNICEF və UNDP layihələri çərçivəsində sosial-psixoloji təlimçi kimi fəaliyyət göstərib, gender əsaslı zorakılığın qarşısının alınması və psixososial dəstək proqramlarında iştirak edib. O, müharibə və böhran şəraitindən zərər çəkmiş qadın və uşaqlara psixososial dəstək üzrə dövlət proqramlarına da cəlb olunub. Hazırda Azərbaycan İdman Akademiyasında psixoloq vəzifəsində çalışır.

Mühazirə tələbələr tərəfindən maraqla qarşılanıb, onları maraqlandıran suallar mühaziərəçi tərəfindən ətraflı şəkildə cavablandırılıb.

**Universitetimizin Şüa diaqnostikası ixtisası üzrə rezidentləri İsfəndiyar Məmmədov və Fərid İsmayıllı beynəlxalq rotasiya proqramı çərçivəsində Çin Xalq Respublikasında yerləşən Zhejiang Universitetinin tərkibində fəaliyyət göstərən The Second Affiliated Hospital-da olublar.**

# Rezidentlərimiz Çində təcrübə keçib



Rotasiya müddətində rezidentlər klinikanın Ultrasəs müayinəsi şöbəsinin müdiri, professor Pintong Huangın rəhbərliyi altında əvvəlcədən təsdiqlənmiş strukturlaşdırılmış praktiki proqram üzrə fəaliyyət göstəriblər. Onlar diaqnostik ultrasəs müayinələri ilə yanaşı, müxtəlif invaziv radioloji müdaxilələrdə bilavasitə iştirak edərək praktik bacarıqlarını inkişaf etdiriblər.

Proqramın ilkin mərhələsində rezidentlər Çin mədəniyyəti, klinikanın tarixi, təşkilati strukturu və fəaliyyət prinsipləri barədə təqdimatla tanış olublar. Daha sonra xəstəxananın gündəlik iş rejimi və rotasiya çərçivəsində nəzərdə tutulan praktik fəaliyyət planı haqqında ətraflı məlumat verilib. Rotasiya dövründə rezidentlər mütəmadi olaraq multidissiplinar konsiliumlarda, ultrasəs müayinələrində və invaziv radioloji prosedurlarda iştirak ediblər. Eyni zamanda ixtisas sahəsi üzrə təşkil olunan elmi konfrans və seminarları izləyərək akademik biliklərini artırıblar. Təcrübə çərçivəsində qalxanvari vəz və qaraciyər şişlərinin mikrodalğa və radiofrekans ablasiyası, incə iynə aspirasiya biopsiyası, müxtəlif drenaj prosedurları və digər ultrasəs yönümlü müdaxilələrin icra texnikası ilə yaxından tanış olublar.

Rezidentlər rotasiya proqramının yüksək səviyyədə təşkilinə görə Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyliyə, kafedra müdiri, professor Məlahət Sultana və Azərbaycan Radioloqlar Cəmiyyətinin katibi, tibb üzrə fəlsəfə doktoru Elşad Sadıqova minnətdarlıqlarını bildiriblər.

# Qazaxıstanlı tələbələr ATU-da bilik qazanıb



**Akademik mobillik proqramı çərçivəsində Qazaxıstan Respublikasının Karaqanda Tibb Universitetinin V kurs tələbələri Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasında təcrübə mübadiləsinə cəlb olunublar.**

Proqramın əsas məqsədi tələbələrin nəzəri biliklərinin klinik mühitdə möhkəmləndirilməsi, praktik bacarıqlarının artırılması və beynəlxalq təcrübə mübadiləsinin genişləndirilməsidir.

Təcrübə müddətində tələbələr kafedranın professor-müəllim heyətinin rəhbərliyi altında tədris proqramına uyğun olaraq klinik məşğələlərdə, praktik dərslərdə və müzakirələrdə iştirak ediblər. Praktik məşğələlər zamanı uşaq xəstəliklərinin diaqnostikası və müalicəsində müasir yanaşmalar, klinik halların təhlili, həkim-pasiyent münasibətləri və multidissiplinar yanaşmalar barədə ətraflı məlumat verilib.

Eyni zamanda tələbələrlə interaktiv müzakirələr aparılıb, onların sualları cavablandırılıb, nəzəri biliklərin praktik yanaşma bacarıqlarına çevrilməsi istiqamətində tapşırıqlar icra olunub.

# Məzunumuz QİÇS-lə Mübarizə Mərkəzində işə başlayıb



Universitetimizin məzunu Səbinə Nəbizadə Respublika QİÇS-lə Mübarizə Mərkəzinin Təşkilati-metodiki şöbəsində həkim-metodist vəzifəsinə təyin olunub. Bununla bağlı ATU və Mərkəzin rəhbər şəxsləri arasında görüş keçirilib. Görüşdə Mərkəzin direktoru Famil Məmmədov Azərbaycan Tibb Universiteti ilə qurulan əməkdaşlığın uğurlu nəticələr verdiyini qeyd edərək, bu əlaqələrin gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirib.

Universitetin Məzunlarla iş şöbəsinin müdiri Şəfəq Cəbrayılova məzunların işlə təmin olunması istiqamətində görülən işlərdən söz açaraq, səhiyyə müəssisələri ilə əməkdaşlığın genişləndirilməsinin prioritet istiqamətlərdən biri olduğunu vurğulayıb.

Səbinə Nəbizadə göstərilən dəstəyə görə təşəkkürünü ifadə edərək bildirib ki, ATU-da təhsilini başa vurduqdan sonra Respublika QİÇS-lə Mübarizə Mərkəzində işə qəbul olunmasında Məzunlarla iş şöbəsinin, xüsusilə də şöbə müdirinin yüksək peşəkarlığı mühüm rol oynayıb. O, məzunların məşğulluğu istiqamətində aparılan ardıcıl və məsuliyyətli fəaliyyətin onun peşəkar inkişafı üçün dəyərli stimul olduğunu qeyd edib.

**Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzində "Səhiyyədə rəqəmsal transformasiya və innovasiyalar – 2026" adlı elmi-praktik konfrans təşkil olunub.**

# Tələbələrimiz səhiyyədə rəqəmsal transformasiya konfransında



Konfransın əsas məqsədi səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, əlçatanlığın artırılması və müasir texnologiyaların səhiyyə sisteminə inteqrasiyasının təşviqi olub. Tədbir çərçivəsində informasiya texnologiyalarının səhiyyədə tətbiqi, müasir tibbi texnologiyalar, klinik simulyasiya proqramları, mobil səhiyyə tətbiqləri, elektron resept sistemi və süni intellektin tibdə rolu kimi aktual mövzular ətrafında müzakirələr aparılıb.

Elmi-praktik konfransda Azərbaycan Tibb Universitetini İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının "Menecment" (səhiyyə sahəsi üzrə) ixtisasında təhsil alan II kurs magistrantları təmsil ediblər. Belə ki, Mahmud Yusifov, Nəriman Mirişov, Heydər Bəxtiyar və Emil Sklyar tədbirdə müasir səhiyyə yanaşmaları ilə yaxından tanış olublar.

Qeyd olunub ki, bu cür konfranslar magistrantların elmi dünyagörüşünün formalaşmasına, səhiyyədə innovativ həllərin mənimsənilməsinə və gələcək peşə fəaliyyətlərinə mühüm töhfə verir.

# "İctimai sağlamlıq" jurnalının növbəti sayı nəşr olunub




İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının təsisçiliyi ilə 2024-cü ildən nəşr edilən "İctimai sağlamlıq" jurnalının 2025-ci il üzrə 2-ci sayı işıq üzü görüb. Bu il jurnalın internet saytı (publichealth.az) da istifadəyə verilib. Sayt dövri elmi nəşrlər üçün qəbul olunmuş konsepsiyaya uyğun şəkildə tərtib olunaraq "Jurnal haqqında", "Arxiv", "Redaksiya heyəti" və "Müəlliflərin nəzərinə" bölmələrini əhatə edir.

Cari ildən etibarən "İctimai sağlamlıq" jurnalı elmi nəşrlər üçün müəyyən edilmiş müasir tələblərə uyğun olaraq ISSN 3105-7012 və E-ISSN 3105-7020 beynəlxalq identifikasiya kodları ilə təmin olunub. Jurnal eyni zamanda DOI (Digital Object Identifier) sisteminə daxil edilərək 10.33864/3105-7020 identifikatorunu əldə edib. 2025-ci ilin 1-ci sayında dərc olunmuş bütün məqalələr də ayrıca DOI kodları ilə təmin olunub.

Qeyd edək ki, DOI identifikatoru elmi məqalələrin internet üzərindən daimi əlçatanlığını təmin etməklə yanaşı, Scopus, Web of Science, PubMed kimi nüfuzlu elmi bazalarda tanınmasını asanlaşdırır, beynəlxalq sitat formatlarında istifadəsini mümkün edir və müəlliflik hüquqlarının qorunmasına töhfə verir. Jurnalın əsas məqsədi bibliometriya və elmmetriya prinsiplərinə uyğun, yüksək impakt faktorlu, beynəlxalq reytinqlərdə yer alan və Azərbaycan tibb elmini layiqincə təmsil edən keyfiyyətli elmi dövri nəşr yaratmaqdır.

# “Ah, bu uzun sevda yolu” tamaşası səhnəyə qoyulub

## Tələbələrimizin səhnə işi alqışlarla qarşılanıb



**Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində 2018-ci ildən fəaliyyət göstərən Teatr Klubunun üzvləri tərəfindən hazırlanmış növbəti tamaşa - “Ah, bu uzun sevda yolu” təqdim edilib. Görkəmli Azərbaycan şairi Mikayıl Müşfiqin həyatına həsr olunmuş tamaşanı universitetin rektoru, professor Gəray Gəraybəyli, professor-müəllim heyəti və tələbələr izləyiblər.**



Elvin Abbaszadənin rejissorluğu ilə səhnələşdirilən tamaşanın bədii rəhbəri Səid Qənbər, işıq rejissorları Məhəmməd Məmmədli və Cavid Cəfərli, səs rejissoru isə Aytac Şükürlüdür.

Tamaşada əvvəlcə Mikayıl Müşfiqin öz həyat yoldaşı Dilbər Axundzadəyə olan dərin və saf məhəbbəti təsvir olunur. Onların görüşləri, şairin Dilbərə həsr etdiyi sevgi məktubları və şeirləri səhnə əsərinin lirik xəttini təşkil edir. Bu sevgi Müşfiqin yaradıcılığına yeni ruh və ilham gətirir. Ardınca onların toy mərasimi canlandırılır. Müşfiqin yaxınları və şair dostlarının iştirak etdiyi bu səhnə şən və səmimi ab-havası ilə seçilir.

1933-cü ildə ailə quran cütlüyün 1934-cü ilin mart ayında oğulları dünyaya gəlir. Lakin körpənin cəmi iki ay sonra ağır xəstəlik nəticəsində vəfat etməsi onların həyatında dərin faciə kimi təqdim olunur.

Zaman keçdikcə Mikayıl Müşfiqə qarşı tənqidlər və ittihamlar başlanır. Yazıçılar İttifaqının plenumlarında onun yaradıcılığına qarşı hücumlar edilir, mətbuatda böhtan xarakterli yazılar dərc olunur. Buna baxmayaraq, bəzi şairlərin Müşfiqi müdafiə etməsi tamaşada xüsusi vurğulanır.

Hadisələr getdikcə gərginləşir və şair gecə saatlarında öz evində həbs olunur. İstintaq zamanı ona əks-inqilabi fəaliyyətlə bağlı ağır ittihamlar irəli sürülsə də, Müşfiq bunları qəbul etmir. 1938-ci ildə onun güllələnməsi barədə hökm çıxarılır.

Müşfiqin həbsi və edamından sonra həyat yoldaşı Dilbər Axundzadə də həbs edilir. Ağır işgəncələr və psixoloji sarsıntılar onun sağlamlığını ciddi şəkildə pozur. 1939-cu ildə həbsdən azad edilsə də, yaşadığı faciələr Dilbərin həyatında silinməz izlər buraxır.

Tamaşa repressiya illərinin faciəsini, Mikayıl Müşfiqin keşməkeşli taleyini və böyük məhəbbətin bütün bu zülm və haqsızlıqlara baxmayaraq sarsılmadığını tamaşaçıya təsirli şəkildə çatdırır.

Tamaşada tələbə aktyorlar - Səid Qənbər (Mikayıl Müşfiq), İlahə Əliyeva (Dilbər Axundzadə), Aydın Çələbi (Frençli kişi), Elvin Abbaszadə (dost şair), Maarif Eyvazov (düşmən şair), İbrahim İbrahimov (müdrik şair), Elçin Fərzəliyev (novator şair), Asiman Məmmədli (qadın şair), Nihat Cabbarov (qorxaq şair), Aysel Manafova (ev sahibəsi), Aytac Vəliyeva (Gülər) öz rollarını yüksək peşəkarlıqla canlandıraraq tamaşaçıların alqışlarını qazandılar.

Tamaşanın sonunda Mikayıl Müşfiq obrazını canlandıran Səid Qənbər çıxış edərək şairin xatirəsinin heç zaman unudulmayacağını vurğulayıb. Tamaşa gur alqışlarla başa çatıb, yaradıcı heyətə gül dəstələri verilib.

**Azərbaycan Tibb Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində fəaliyyət göstərən Teatr Klubunun üzvləri tərəfindən növbəti tamaşa təqdim olunub. Görkəmli alim, akademik Mustafa Topçubaşovun 130 illik yubileyinə həsr edilən, Ənvər Yusifzadənin eyniadlı povesti əsasında hazırlanmış “Cərrahlar” tamaşası universitet səhnəsində nümayiş etdirilib. Tamaşanı universitetin professor-müəllim heyəti və tələbələr maraqla izləyiblər.**

# “Cərrahlar” tamaşası maraqla izlənilib

Dilbər Rahim Əliyevanın ssenari işləməsi, Mirhəsən Cəfərovun rejissor və bədii rəhbərliyi ilə səhnələşdirilən tamaşanın səs rejissoru Bəhruz Abasov, işıq rejissorları isə Günel Tağı və Sevanə İsazadədir.

Tamaşa həkimlik peşəsinin insan həyatı üçün böyük məsuliyyəti və mənəvi ağırlığını aydın və təsirli şəkildə göstərir. Burada cərrahların yalnız peşə fəaliyyəti deyil, eyni zamanda onların daxili aləmi, vicdan qarşısında verdikləri çətin qərarlar və peşə borcu ilə bağlı vəziyyətlər ön plana çıxarılır. Əsərdə



həkimlik etikasına sadiqlik, elmə hörmət və insana xidmət əsas ideya kimi təqdim olunur. Obrazlar vasitəsilə həyatla ölüm arasında edilən seçimlər, vicdanlı və məsuliyyətli davranmağın nə qədər vacib olduğu tamaşaçıya çatdırılır.

Səhnə əsərində həkimlərin şəxsi həyatlarına da yer verilib. Onların gündəlik qayğıları, daxili çətinlikləri və yaşadıqları hisslər tamaşada əks etdirilir. Müxtəlif talelərə malik xəstələr tamaşada mühüm yer tutur. Hər bir xəstə öz dərdi və ümidi ilə səhnəyə çıxır, həkimlər isə bütün bu fərqli vəziyyətlərdə insan həyatını xilas etmək üçün səbr və peşəkarlıq göstərirlər.

Eyni zamanda tamaşada həkimlər arasında mövcud olan şöhrət arzusu, şəxsi maraqlar və rəqabət kimi cəhətlər də göstərilir. Bu məqamlar göstərir ki, yüksək peşə sahibi olmağın fonunda belə, insan xarakterində zəifliklər mövcuddur.

Tamaşa müsbət sonluqla yekunlaşır və bu uğur Tibb Universitetinin istedadlı tələbələri – İsmət Ağazadə, Aydın Çələbi,



Gülnur Ustarlı, Nihat Cabbarov, Aydan Əhmədzadə, Röya Əhmədova, Məhəmməd Məmmədli, Jalə Məmmədli, Turac Ağazadə, Cavid Cəfərli, Aysun Əliyeva, Elmir Məmmədov, Elçin Fərzəliyev, Cəfər Qurbanov, Fərid Ocaqzadə, Mirhəsən Cəfərov, Mirhəsən Əliyev, Fatimə Tahirova, Elgün Abdullayev, Nail Rüstəmzadə, Nuray Sadıqova və Könül Nəsibovanın aktyorluq məharəti sayəsində mümkün olur.

“İnsanlar iki yerə ayrılır: həkimlər və digərləri. Həkimlər iki yerə ayrılır: cərrahlar və digərləri” sitatı ilə yekunlaşan tamaşa alqışlarla qarşılanıb və yaradıcı heyətə gül dəstələri təqdim olunub.

# Əcnəbi tələbələr arasında idman festivalı keçirilib



**Universitetimizin “Təbib” Tədris İdman Mərkəzi və Bakı şəhər Gənclər və İdman İdarəsinin Nəsimi rayonu üzrə Gənclər və idman sektorunun birgə təşkilatçılığı ilə əcnəbi qız tələbələr arasında idman festivalı keçirilib. Festival çərçivəsində estafet qaçışı, kəndirlə mübarizə, voleybol, futzal, badminton və stolüstü tennis üzrə yarışlar təşkil olunub. Yarışlar beynəlxalq idman qaydalarına, həmçinin Azərbaycan Gənclər və İdman Nazirliyinin ölkədaxili yarışların keçirilməsi ilə bağlı texniki reqlamentinə uyğun şəkildə baş tutub.**

İdman festivalında hər birində 6 nəfər olmaqla, ümumilikdə 6 komanda iştirak edib. Komandalar “Angry”, “Neuro Ninjas”, “Strong”, “Star”, “Phenix” və “Ninja Warriors” adları altında mübarizə aparıblar.

İdman mərkəzinin məşqçi-müəllimləri ixtisaslarına uyğun olaraq idman növləri üzrə yarışlara rəhbərlik ediblər. Belə ki, estafet qaçışı üzrə Xatirə Şıxlı və Kübra Bacarani, badminton üzrə Nərgiz Mehdiyeva, kəndirlə mübarizə üzrə Zakir Məmmədov və Leyla Ağayeva, voleybol üzrə Şükür Bayramov və Sevinc İsayeva, futzal üzrə Şükür Bayramov və Ələkbər Əliavsarov, stolüstü tennis üzrə isə Yaroslava Ağaməliyeva və Aybəniz Əliyeva cavabdeh olublar. Yarışlara estafet qaçışı ilə start verilib, festival futzal yarışı ilə yekunlaşıb. Bütün idman növlərində yüksək rəqabət, birlik, dostluq və güclü komanda ruhu açıq şəkildə hiss olunub.

Gərgin və maraqlı mübarizənin yekun nəticələrinə əsasən, I yerə “Neuro Ninjas”, II yerə “Phenix”, III yerə isə “Ninja Warriors” komandası layiq görülüb.

Festivalın bağlanış mərasimində “Təbib” Tədris İdman Mərkəzinin müdiri, əməkdar məşqçi Qələndər Aslanov, ATU-nun əcnəbi tələbələrlə iş üzrə dekanı Natiq Bayramov, Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Qoşqar İsmaylov və Nəsimi rayon Gənclər və idman sektorunun müdiri Yusif Babanlı çıxış ediblər.

Çıxışlar zamanı vurğulanıb ki, Azərbaycan Tibb Universiteti tələbələrinin təxminən 30 faizini əcnəbilər təşkil edir. Onların asudə vaxtlarının səmərəli təşkili, sosial inteqrasiyası və sağlam həyat tərzinin təşviqi məqsədilə universitetdə mütəmadi olaraq idman və mədəni-kütləvi tədbirlər həyata keçirilir və bu təşəbbüslər gələcəkdə də davam etdiriləcək.

Tədbirin sonunda qalib komandalar diplom, medal və kuboklarla, təşkilatçılar və digər iştirakçılar isə təşəkkürnamələrlə təltif olunublar.

## Allah rəhmət eləsin!

Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının kollektivi kafedranın baş müəllimi Sevinc xanıma bacısı

**Xədicə Musayevanın**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları kafedranın assisteni

**Baxşəli Vəliyevin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

“Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun “Təbib” nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0022
Sayı 800